# Fikrət Verdiyev: Zeynəb xanımdan soruşdum ki, bu, nə məsələdir

*Tanınmış tarzən, Xalq artisti Fikrət Verdiyev və həyat yoldaşı, korifey sənətkarımız Xan Şuşinskinin yadigarı, onun adını daşıyan Fondun prezidenti Bəyimxanım Cavanşirova-Verdiyevadan neçə müddət idi müsahibə götürmək istəyirdim. Odur ki, təxminən bir neçə ay öncə müsahibə ilə bağlı Bəyimxanım xanıma müraciət etdim və ondan ilkin razılıq aldım.*

*Sonra müəyyən səbəblərdən söhbətimiz bir qədər gecikməli oldu və bu günlərdə Fikrət Verdiyevin əsasını qoyduğu, yaradıcısı olduğu məşhur "Göygöl" ansamblının yaranmasının nə az, nə çox, düz 50 illiyinin tamam olması xəbərini aldım.*

*Bununla bağlı bir daha müsahibə üçün Bəyimxanım xanımla əlaqə saxladım və vaxt təyin etdik. Təxminən iki saat davam edən müsahibədə bir çox məsələlərdən - yaradıcılıqdan, sənət aləmindən, sənətkarlardan və digər məsələlərdən danışdıq.*

*Beləliklə, Oxu.Az-ın müxbirinin suallarını tanınmış tarzən, Xalq artisti Fikrət Verdiyev və həyat yoldaşı, Xan Şuşinski Fondunun prezidenti Bəyimxanım Cavanşirova-Verdiyeva cavablandırır:*

- İstərdik ki, söhbətimizə elə müsahibədən əvvəl danışdığımız məsələdən başlayaq. Dediniz ki, zamanında, elə indinin özündə də rayonlardan, bölgələrdən olan gənc sənətçilərlə ünsiyyətdə olmusunuz, onların bir çoxunun tanınmasında yaxından iştirak etmisiniz. Hətta Ağcabədidən olan bir gənclə bağlı maraqlı bir əhvalatın da olduğunuzu bildirdiniz. Odur ki, gəlin, elə həmin əhvalatdan başlayaq...

***"Heç bir işdə təmənna güdməmişəm, güdmərəm də"***

**Fikrət Verdiyev:**

- Bir dəfə "Xəzər" telekanalında tanınmış aparıcı Səyyafın verişilinə baxırdım, gördüm ki, Rasim adlı bir qoca kişi deyir, Xan Şuşinski mənə Ləhcə ləqəbini verib, yəni Rasim Ləhcə. Özümə sual verdim ki, görəsən, axı bu haradan tanıyır Xan əmini, onunla Xan əminin nə əlaqəsi?!

Verilişin aparıcısı dedi ki, görünür, kiminsə ləhcəsində, üslubunda oxumusan ki, sənə Ləhcə ləqəbi verilib. O da dedi, düzdür. Dedi, onda başla oxumağa. Həmin şəxs başladı Cabbar Qaryağdıoğlunun ləhcəsində, üslubunda oxumağa, sonra Mütəllim Mütəllimovun, Xan Şuşinskinin, Yaqub Məmmədovun, Qədir Rüstəmovun ləhcəsi ilə oxudu.

Mənə də həmin ərəfədə Gəncə şəhər rəhbərliyindən xəbər çatdırılmışdı ki, Novruz bayramında böyük bir heyətlə gəzə-gəzə gələcəyik, Fikrət Verdiyev bizi Qurban Pirimovla Cabbar Qaryağdıoğlunun heykəlinə çatanda trio ilə qarşılasın, bir muğam havası ifa etsin. Açığı deyim ki, həmin vaxt Gəncədə elə güclü muğam oxuyan yox idi. Novruza 10 gün qalmışdı, dedim, elə bu kişi mənim işimə əla yarayar, deyim, gəlib bizim trio ilə muğam oxusun. Dərhal Ağcabədidəki dostlara zəng etdim ki, Rasim Ləhcəyə deyin, mənimlə əlaqə yaratsın, işim var. Heç bir saat keçməmiş mənə zəng etdi. Dedim ki, Rasim kişi, Gəncəyə gəlin, işim var sizinlə. Dedi ki, oğlumu da özümlə gətir bilərəm? Dedim ki, oğlun nə iş görür? Dedi ki, o da oxuyur, dedim ki, onda gətir.

Gəldilər, gördüm ki, qarayanız, 30-35 yaşlarında bir oğlandır, Gəncə Dövlət Filarmoniyasında tarı kökləmdim, bu ata-balanı "Zabul segah"ın zilinə çəkdim. Gördüm ki, ata da gözəl oxuyur, oğlu isə lap əla oxuyur, haradan istəyirsən, oradan cavab verir, bir sözlə, uzunbəla.

Həm də gördüm ki, Rasim kişinin səsi mən dinlədiyim səs deyil, bir qədər xırıltı var. Dedim, Rasim kişi, həmin çəkiliş nə vaxt olmuşdu, dedi ki, iki il qabaq, indi 63 yaşım var, onda isə 61 yaşım. Dedim, siqaret çəkirsən, dedi, hə, gündə üç "paçka", dedim, araq içirsən, dedi, gündə yarım litr. Dedim, işləri düzəltmisən ki. (gülür)

Dedim ki, bunlardan sonra hələ də səsin qalıbsa, oxuya bilirsənsə, ata-bala ikiniz də mənliksiniz, birgə çalışacağıq. Beləliklə, bunlarla məşqə başladım, Novruz bayramında adıçəkilən heykəlin qabağında trionun müşayiəti ilə bunlar gözəl muğam ifa etdilər. Şəhər rəhbərliyi dedi ki, bunlar kimdir, haradan tapmısan, çox gözəl oxuyurlar, oğlanı heç əlindən buraxma. Cavab verdim ki, elə mənim də fikrim belədir.

Dedim ki, Rasim kişi, sən get, oğlun qalsın, onu Gəncə Dövlət Filarmoniyasına işə götürürəm. Dedi, elə mənim də arzum bu idi, oğlumun gözəl səsi var, itib-batmasın. Eşitmişəm ki, belə istedadlı gəncləri bir-bir tapıb üzə çıxarırsan, mənim də arzum idi ki, oğlum qabağa çəkilsin, tanınsın, bu, elə mənə bəsdir.

Beləliklə, həmin gənc oğlanı filarmoniyaya işə götürdüm, onu Xan Şuşinski Fondunun xətti ilə Fransaya apardım, telekanallara çıxardım, Beynəlxalq Muğam Mərkəzində böyük sənətkarımız Arif Babayevlə tanış elədim. Artıq bu gün hamı onu tanıyır, sənət aləmi də bilir ki, Anar kimdir.

Belə gəncləri, istedadları tapıb ortaya çıxardıqca ləzzət alıram. Bu işləri görərkən heç bir təmənna güdmürəm, güdməmişəm, güdmərəm də. Ömrü boyu belə bir şey ola bilməz. Hətta təklif edəndə ki, gedib çörək yeyək, dərhal deyirəm ki, o zaman hesabı özüm verəcəm. İstəmirəm desinlər ki, Fikrət Verdiyevə kabab qonaqlığı veriblər. Belə şeylərdən uzaq olmuşam hər zaman...

***"İstedad, ilahi vergi olmasa, kimisə müğənni, ifaçı və ya tarzən, kamanzən etmək mümkün deyil"***

**- Yaradıcısı və rəhbəri olduğunuz "Göygöl" ansamblının yaranmasından düz 50 il keçir, bu ay yarım əsrlik yubileyinizdir. Bu müddət ərzində tarzənləri demirəm, muğam, mahnı ifaçılarından**



**daha kimlərin qolundan tutub səhnəyə gətirmisiniz, onların dəqiq sayını bilirsinizmi?**

- Vallah, sayları çoxdur, sadalamaqla qurtarmaq olmaz. Elə söhbətə başlamazdan əvvəl sizin də tanış olduğunuz, azacıq da olsa ifasını dinlədiyiniz Faiqi götürək. Əslən Xocalıdandır, məcburi köçkün kimi biz tərəflərdə yaşayır. Gördünüz ki, necə gözəl səsi, boğazı var.

Onun da istedadı olmasaydı, götürməzdim. İstedad, ilahi vergi olmasa, kimisə müğənni, ifaçı və ya tarzən, kamanzən etmək mümkün deyil. Gərək öncə insanın özündə olsun. Amma təbii ki, onları axtarıb tapmaq, irəli çəkmək də lazımdır. Muğamları gözəl bilsəm də, oxuyan deyiləm, sadəcə, lazım gələndə zümzümə edirəm, gənc istedadlara yön verirəm ki, belə oxuma, belə oxu, belə eləmə, belə et... Zamanında Şahnaz xanımla, rəhmətlik Rövşən Behcətlə, digərləri ilə də belə etmişəm...

***"Dədəm gülə-gülə dedi ki, nə qədər lazımdırsa, verirəm, amma qalib gəlməsəniz, pulu geri alacağam"***

**- Bir sualdan digərinə keçirəm, ümumiyyətlə, nə vaxtdan bu sənətdəsiniz?**

- Ümumiyyətlə, 14 yaşımdan Gəncədəki keçmiş Pionerlər Evindəki musiqi-tar dərnəyinə rəhbərlik edirdim. 1961-ci ildə xəbər gəldi ki, mərhum Əfrasiyab Bədəlbəyli Bakıda keçmiş Dzerjinski, indiki Şəhriyar adına klubda uşaq ansambllarının festivalını təşkil edir. Bunu eşidən kimi çox sevindim, dərnəyimizdə 20-22 uşaq vardı, müdirimizə dedim ki, ansamblı yaxşı hazırlamışam, yol pulumuzu verin, gedək, festivalda özümüzü sınayaq.

Gördüm ki, nəsə alınmır, pul yoxdur, gəldim dədəmə dedim ki, ay dədə, ansamblı festivala aparmalıyam, amma pul yoxdur. Az vəsait tələb olunmurdu.

Dedi, nə qədər lazımdır ki? Dedim ki, bəs gedib-qayıtmaq pulu, bir də özüm üçün bir az cibxərcliyi versən, bəsdir. Dədəm gülə-gülə dedi ki, nə qədər lazımdırsa, verirəm, amma qalib gəlməsəniz, pulu geri alacağam. (gülür)

Atam həm gediş, həm dönüş biletlərimizi aldı, beləliklə, Bakıya gəldik və iki gün burada qaldıq, festivalda iştirak etdik. Festivalda Azərbaycanın hər yerindən gənc istedadlar, ansambllar iştirak edirdi, çox gərgin bir yarış gedirdi və sonda bizim ansambl birinciliyi qazandı.

Qayıdandan bir az sonra - 15-16 yaşlarımda artıq məni işə götürdülər. Hansı ki o vaxtlar belə məsələ mümkün deyildi, bu yaşlarda heç kimi işə götürmürdülər. Məni isə 1963-cü ildə, 16 yaşım tamam olmamış işə götürdülər, əmək kitabçamda indi də durur.

Sonra Gəncə Şəhər Mədəniyyət Evində fəaliyyət göstərməyə başladım, orada ansambla rəhbərlik edirdim. Daha sonra Qənbər Hüseynli adına Gəncə Şəhər orta-ixtisas Musiqi Məktəbini (Texnikumunu) oxuya-oxuya həm Daşkəsəndə müəllimlik edirdim, həm indiki Samuxda fəaliyyət göstərirdim.

Həmin vaxt Samux rayonu Xanlar (indiki Göygöl) rayonuna baxırdı, amma Samuxda musiqi məktəbi yox idi. Orada Xanlar rayon musiqi məktəbinin filialının açılışına nail oldum, musiqi məktəbinin təməlini qoydum. Sonra Gəncədə təhsil aldığım Musiqi Məktəbində dərs deməyə başladım.

Beləliklə, 1967-ci ildə gəlib Bakıda ozamankı Konservatoriyaya (indiki Bakı Musiqi Akademiyasına) qəbul olundum, mərhum Adil Gərayın tələbəsi oldum. Bu gün də fəxr edirəm ki, Adil Gəray kimi bir pedaqoqun tələbəsiyəm.

O, hər zaman mənim kimi tələbəsi olduğu üçün fəxr etdiyini deyərdi. Konservatoriyada oxuduğum illərdə, artıq ikinci kursdan Müslüm Maqomayev adına Filarmoniyaya gedib-gəlirdim, hər dəfə görürdüm ki, gözəl ansambllar var, adama ləzzət edir. Bunları görərkən məndə bir qədər yaxşı mənada paxıllıq hissi yaranırdı ki, Gəncə kimi dahilərin, korifeylərin məskənində niyə mahnı və rəqs ansamblı olmasın?

Axı Gəncədə cabbarlar, xanlar, seyid şuşinskilər, digərləri yaşayıblar, yaradıblar, bizim niyə ayrıca ansamblımız olmasın ki?! Axı Gəncədə də gözəl musiqiçilər var, axtarıb tapmaq olar. Bu düşüncələr mənə rahatlıq vermirdi. Gəldim Gəncəyə, rəhmətlik Rövşən Behcət vardı, yəqin ki, tanıyarsınız...

***"Biletlərimizi alıb xəlvətcə ansamblla birlikdə Gəncədən Bakıya, AzTV-yə gəldik"***

**- Yaxşı tanıyıram, özünəməxsus ifa tərzi olan sənətkarlardan idi. Kimsəni yamsılamır, təqlid etmirdi...**

- Tamamilə, düz deyirsiniz, Allah rəhmət eləsin, çox gözəl ifa tərzi olan sənətçimiz idi. O vaxtlar Gəncədə yerləşən Alüminium Zavodunda fəhlə işləyirdi. Onun bir dəfə ifasını özfəaliyyət ansamblларının konsertində eşitmişdim və çox ürəyimə yatmışdı. Rövşənə dedim ki, gəl yanıma. Beləliklə, 1969-cu ildə Gəncədə ayrıca mahnı ansamblı yaratmağa başladım.

Kubra adlı qız vardı, onu da ansambla götürdüm və bununla, yavaş-yavaş fəaliyyətə, məşqlərə başladıq. Bu barədə heç kimə heç nə demədik. Böyük tarzən, rəhmətlik Baba Salahov və yerlimiz, tanınmış dirijor və bəstəkar Nəriman Əzim Gəncəli ilə konservatoriyada oxuyandan səmimi münasibətlərimiz yaranmağa başlamışdı.

Bir gün onları da götürüb gətirdim Gəncəyə, ansamblı dinləməyə başladılar. Dedilər ki, ay Fikrət, çox əla, elə bu dəqiqə səhnəyə, efirə çıxacaq vəziyyətdədirlər. Gəncədən qayıdıb Bakıya gəldilər, AzTV ilə danışdılar, bizə efir vaxtı aldılar. Martın ayının 30-u idi, xəlvətcə biletləri alıb, ansamblla Gəncədən Bakıya, AzTV-yə gəldik.

Gəncə rəhbərliyi xəbər tutur ki, AzTV-də Gəncə "Göygöl" ansamblının konserti gedəcək. Dərhal Gəncənin ikinci katibinə zəng edirlər ki, sənin bundan xəbər var, deyir ki, yox, zəng edirlər Mədəniyyət Şöbəsinin müdirinə, deyir ki, heç nədən xəbərim yoxdur.

**(ardı növbəti sayımızda)**

**Kamil HƏMZƏOĞLU**
**FOTO: Ramil ZEYNALOV**